# Ölkəmizin bütün bölgələrində haqqın, ədalətin, demokratiyanın təntənəsinin şahidi olduq!



## Qəbələ

Qəbələ hər gün, hər saat dəyişir. Bu sözü, bəlkə də min dəfə, milyon dəfə eşitmişik. İlin bütün fəsillərində gözəl olan bu yerlər turizm məkanına çevrilib. İndi dünyanın hər yerindən bura yüzlərlə, minlərlə turist gəlir, burada yaradılmış gözəlliklərdən zövq alırlar. Bu gün də Qəbələdə əsl yaz havasıydı. Ürək oxşayan və əsrarəngiz diyarda insanda xoş ovqat yaradan belə bir havada seçicilər məntəqələrə tələsirdilər...

116 saylı dairə seçki komissiyasının 43 min 743 nəfər seçicisi var. Onlar 54 məntəqədə səs verirlər. 10 məntəqədə veb-kamera quraşdırılıb. 610 nəfər müşahidəçi seçkinin gedişini izləyir. Seçkilər tam şəffaf, heç bir müdaxilə olmadan keçirilir. Məntəqə üzvləri tam təlimatlandırılıb. Hələ seçkidən əvvəl treninqlər keçirilib, seçkinin tam demokratik olması üçün vacib olan tövsiyələr verilib. Odur ki, bir nəfər də olsun belə burada hansısa qanun pozuntusu olduğunu deyə bilməz.

Nəcəf dayını təxminən 10 ildir ki, tanıyıram. Uzun illər kənd təsərrüfatı sistemində çalışıb. Təcrübəli mütəxəssisdir. Yeddi uşaq böyüdüb, boya-başa çatdırıb. Bu gün 14 nəvəsi, 12 nəticəsi var. Həyat yoldaşı Səriyyə xanımla 60 il bir yerdə ömür sürüb. 8 il bundan əvvəl dünyasını dəyişmiş. Həyat yoldaşı haqqında danışanda kövrəlir, üzünü yana çevirir ki, gözlərindən axan yaş damlalarının çöhrəsində düyünlənməsini heç kəs görməsin.

İndi oğlu Rahillə birgə yaşayır. Gəlini Dilarə, nəvələri həmişə qulluğundadırlar.

Bütün bunları yazıram. Və fikirləşirəm ki, məhz aprel ayının 11-də 90 yaşı tamam olan Nəcəf Mustafayev üçün bu gün ikiqat bayramdır.

Adətinə uyğun olaraq səhər hamıdan tez yuxudan durub, övladlarını qaldırıb, səhər yeməyindən sonra ailəliklə səs verməyə gediblər.

Nəcəf dayı ilə axşam danışa bildim. Evlərində əsl qələbəlik idi. Bu nurani insanı yubileyi münasibətilə təbrik etdim. Hiss etdim ki, yenə kövrəldi. “Oğul, mən bəxtəvər insanam, – dedi. Bu gün gedib bax, bu bəxtəvərliyə səs verdim”.

100 yaşa Nəcəf dayı!

Dairə seçki komissiyasının sədri Ramiz Əsədovla əlaqə saxlayanda bildirdi ki, seçicilərin 77,1 faizi səsvermədə iştirak edib.

## Balakən

Fatma Saməddinovanın 118 yaşı var. Sonuncu dəfə onu 5 il bundan əvvəl – prezident seçkiləri ərəfəsində görmüşdüm. Bir neçə gün bundan əvvəl yenə də Qullar kəndinə gələndə qonağı oldum. Xeyli söhbət etdik. Fatma nənə özü Şəkidəndir. Bura gəlin köçüb. Yenə nəvələri, nəticələri başına yığışıb. Ocağın ağbirçəyini heç vaxt tək qoymurlar.

109 saylı dairə seçki komissiyasının sədri Vahid Əliyev bildirir ki, həmişə olduğu kimi Fatma nənə bu dəfə də evində səs verib. “Bəlkə də inanmazsınız”, – deyə, Vahid müəllim sözünə davam edir. – 118 yaşlı nənəmiz deyirdi ki, məntəqəyə özü gələcək. Əlbəttə, biz razı olmazdıq. Ümumiyyətlə, bizim dairədə 43 min 327 nəfər seçici var. 39 məntəqənin səkkizində veb-kamera quraşdırılıb. Əhval-ruhiyyə çox yüksəkdir. Seçicilər məntəqələrə həvəslə gəlib, layiq bildikləri namizədlərə səs verirlər.

6 saylı məntəqənin sədri Züleyxa Dibirova ilə əlaqə saxladıq. Sevinclə bildirdi ki, 1226 nəfər seçicinin 84 faizi artıq öz səsini verib. Günün sonunda Vahid Əliyevə zəng vurduq. “Sizə dedim axı, hələ indiyədək seçkilərdə belə fəallıq olmayıb. Seçicilərin 76,62 faizi səsvermədə iştirak edib.

## Zaqatala

110 saylı Zaqatala seçki dairəsinin seçiciləri də bu gün məntəqələrə yüksək əhval-ruhiyyə ilə gəliblər. Dairə seçki komissiyasının sədri Fikrət Mustafayev dedi:

– 47 məntəqənin hər birindən aldığımız məlumatlar göstərir ki, seçicilər bu kampaniyada yüksək fəallıq göstərirlər.

İlk dəfə səsverənlərin isə sevincinin həddi-hüdudu yoxdur. Onlardan biri – İkram Bazaşvilinin ürək sözlərini yazım, siz də tanış olun: “Mən xoşbəxtəm ona görə ki, istədiyim namizədə, bizim xoşbəxtliyimizin təminatçısı olan şəxsiyyətə səs verirəm”.

9 saylı Əliabad seçki məntəqəsinin sədri Aydın Rəsulovun üzü gülür. 1287 nəfər seçicinin məntəqəyə gəlib səs verməsi, burada yaradılmış demokratik seçkidən razılıqla danışmasından ona da pay düşür.

Seçki başa çatıb. Fikrət Mustafayevə zəng vururam: “Gözəl sonluqdur, – deyir. – Seçicilərin 77,61 faizi seçkidə iştirak edərək səs verib.

## Qax

Qaxdakı 6 saylı seçki məntəqəsinə Sevil Paşayeva nəvələri Adil və Nərgizlə birgə gəlmişdi. Gözəl mənzərə idi. Mən nəvələrimlə ona görə bu tədbirə qatıldım ki, məhz onların xoşbəxt gələcəyinə səs vermək üçün bura gəldiyimi bilsinlər.

Nə qədər səmimi sözlərdir. Əslində, həmin gün Qaxın 58 seçki məntəqəsinə səs verməyə gələn hər bir seçici sanki özündə çox məsuliyyət daşıdığını yaxşı bilirdi. Kimlərlə görüşüb, söhbət etdiksə, hamı məntəqələrdə seçki prosesinin ideal həyata keçirilməsi üçün hər cür şərait yaradıldığından ağızdolusu danışdı. 8 məntəqədə veb-kamera quraşdırılıb. 591 nəfər müşahidəçi qeydiyyatdan keçib. Beynəlxalq müşahidəçilər, demək olar ki, əksər məntəqələri gəzib, seçkinin gedişi ilə tanış olublar. Onlardan bir neçəsi ilə biz də görüşdük. Dedilər ki, heç bir qanun pozuntusu görmədik.

112 saylı Qax dairə seçki komissiyasının sədri Abdukərim Əliyevin məlumatı bizi təəccübləndirmir. Seçicilərin 76,61 faizi seçkidə iştirak edib.

## Kürdəmir

Son illər Kürdəmir simasını başdan-başa dəyişib. Yeni parklar, xiyabanlar salınıb. Bayraq meydanı bu gün kürdəmirlilərin istirahət yeridir. Burada hər şey möhtəşəmdir. Yolunuz Kürdəmirə düşsə, bu meydana siz də gəlin. Hər şey ustalıqla düzəldilib, zövqlə bəzədilib.

Aprelin 11-də Kürdəmirin qocası da, cavanı da seçki məntəqələrinə həvəslə gəliblər. Hələ mən 550 nəfər ilk dəfə səs verənləri demirəm. Sevincləri aşıb-daşır. Onlardan birinin ürək sözləri yəqin sizin üçün də maraqlı olar. “Qürur hissi keçirirəm. Bu gün ölkə başçısının seçkisində iştirak etmək, parlaq gələcəyimizə səs vermək, böyük qələbələrimizə imza atmaq yaddaşımıza yazılacaq ən xoşbəxt anlardandır”.

Fərid Teyyubovun bu fikirlərini söhbət etdiyimiz neçə-neçə gənc təsdiqlədi.

İstər 57 saylı Kürdəmir, istər 58 saylı Kürdəmir – Hacıqabul, istərsə də 65 saylı Saatlı – Sabirabad – Kürdəmir seçki dairələrində səs verməyə gələn seçicilər tam azad, şəffaf şəkildə məntəqələrə gəlib istədikləri namizədlərə səs verdilər.

Kürdəmirdə hamının ağsaqqal, nurani insan kimi tanıdığı Ayyət Nəsirovun dediyi sözlər isə yadımdan çıxmır: “Oğul, mən çox seçkilərdə olmuşam. Amma insanların seçkilərə belə həvəslə gəldiyini ilk dəfədir görürəm”.

## Ağsu

Bilmirəm, son vaxtlar rayonun Caparlı – Abasxanlı – Cəfərli yolu ilə getmisinizmi? Təxminən dörd ay bundan əvvəl asfalt döşənib. Adama ləzzət verir. Bu yolun kələkötüründən canları qurtardıqları üçün hər üç kəndin sakinləri onlar üçün bu şəraiti yaradan insanlara həmişə minnətdar olacaqlar. Zarafat deyil, 30 kilometrlik yolda şütüyən maşınlara baxanda inanmağım gəlmir ki, bir vaxtlar bu kəndlərə getmək üçün saatlarla vaxt itirən sakinlərə indi cəmi15-20 dəqiqə vaxt tələb olunub. 1895-ci ildə anadan olmuş, ömrünün 123-cü baharını yaşayan Nənəş Hüseynova Abasxanlı kəndində yaşayır. Mən bilmirəm, ondan yaşlı seçici var, ya yox? Amma bu, bir həqiqətdir ki, Nənəş nənə 18 saylı məntəqədən gələn qonaqları evində mehribanlıqla qarşılayıb, özü gedə bilmədiyi üçün onlardan üzr istəyib: “Bizim balaları bu xoşbəxtliyə qovuşduran insana səs verməyə gərək özüm gedəydim”, – deyib.





87 saylı Ağsu – İsmayıllı seçki dairəsinin sədri Azad Dursunəliyev bildirdi ki, 63 məntəqənin 9-da veb-kamera quraşdırılıb.

Saat 20-dir. Dairə sədri Azad Dursunəliyevlə əlaqə saxlayıram. Xəttin o başından fərəh dolu səsini eşidirəm. Seçki uğurla baş tutdu. Seçicilərin 76,38 faizi seçkilərdə iştirak edib.

## Şamaxı

“Şamaxı, ey mənim sevimli yurdum, mən sənin qoynunda xaniman qurdum...” Böyük şairin qanadlı misralarını xatırlatmağım, əlbəttə, əbəs yerə deyil. Bu gün Şamaxı hamının sevimli yurduna çevrilib. Görülən işlər, salınan yollar ürəkaçandır. Bu yaxında hələ təzə xəbər də eşitdim. Başdan-başa asfalt döşənmiş Dəmirçi kəndində muzeyin tikintisinə başlanılıb, Azərbaycanın ən qədim yurd yerlərindən biri olan Şamaxının tarixi burada öz əksini tapacaq. İnandırım sizi, çox maraqlı layihədir. İndi Şamaxıda hara getsən, bax belə təəccüblənəcəksən. Çünki tarixə böyük şəxsiyyətlər verən Şamaxıya diqqət son illər xüsusilə artıb.

Elə bunun nəticəsidir ki, 44 min 493 nəfər seçicisi olan şamaxılılar məntəqələrə bu əhval-ruhiyyə ilə gediblər. 63 məntəqənin 11-də veb-kamera qoyulub. Seçkinin necə keçirildiyini birbaşa izləmək mümkün olub. Seçicilərin 4 nəfərinin yaşı 100-ü keçib. 13 saylı məntəqədə səs verməli olan Mədrəsə qəsəbəsinin sakini Gülqayıt Qəhrəmanova da, Meysəri kəndindən olan 36 saylı məntəqənin seçicisi olan Nazxanım Hümbətova da ürəkdolusu danışdılar. Düzdür, onlar məntəqələrə getməsələr də, kimə səs verəcəklərini bilirdilər.

86 saylı Şamaxı seçki dairəsinin sədri Hüseyn Rəcəbov bildirdi ki, seçici fəallığı çox yüksəkdir. Hamı yaxşı bilir ki, seçkidə heç bir qanun pozuntusu ola bilməz. Gəl, imza at, bülleten götür, kimə istəyirsən səs ver, sonra bülleteni qutuya at, get. Vəssalam.

Rayonda 919 nəfər ilk dəfə səs verən var. Bu gün onlar seçkiyə xüsusi fəallıqla qoşulublar. Nə deyək, yolları işıqlı olsun.

Günün sonunda Hüseyn Rəcəbovla əlaqə saxladıq ki, seçicilərin 75,12 faizi seçkilərdə iştirak edib, istədikləri namizədə səs veriblər.

## Mingəçevir

Baba Əliyevlə Mingəçevirdə keçirilən çox tədbirlərdə görüşmüşük. Həmişə harada olubsa hörmətini saxlayıblar, başda əyləşdiriblər. Müharibənin odlu-alovlu yollarından keçib. Cəbhədən sonra doğma Mingəçevirə qayıdıb. Müxtəlif vəzifələrdə çalışıb. Uzun illər Təbiəti Sevənlər Cəmiyyətinə rəhbərlik edib. Dindirəndə həmişə həvəslə bildirib ki, Mingəçevir mənim gözlərim qarşısında böyüyüb, inkişaf edib. Onun hər qarışına yaxşı bələdəm. Gümrahdır. Mingəçevir haqqında o qədər maraqlı xatirələr danışır. Bu gün də 97 yaşlı Baba Əliyev 15 saylı seçki məntəqəsinə özü gəlib. Səs verib, ürək sözlərini deyib. Deyib ki, bugünkü gənclər xoşbəxtdirlər ki, belə bir dövranda yaşayırlar. Bunu görməmək ən azı naxələflikdir. Bu sabitliyə hamı həsəd aparmalıdır. Son illər Mingəçevirdə aparılan abadlıq-quruculuq işləri, tikilən möhtəşəm binalar şəhərə xüsusi yaraşıq verir. Müasir istehsal müəssisələri quraşdırılır, yeni iş yerləri yaradılır. Mingəçevir, oğul, bax, bu nailiyyətlərlə seçkiyə gedir.

Mingəçevirdə 30 məntəqənin 12-də veb-kamera quraşdırılıb. 325 nəfər müşahidəçi qeydiyyatdan keçib. Bəziləri ilə söhbət etdik. Heç biri narazılıq etmədi. Seçkinin demokratik keçirildiyini dönə-dönə bildirdilər. Axşam isə dairə seçki komissiyasının sədri Oqtay Məmmədovla əlaqə saxladıq. Cavabı bu oldu: Seçicilərin 76,38 faizi seçkilərdə iştirak edib.

## İsmayıllı

... Hələ bir həftə əvvəl İsmayıllının, demək olar ki, əksər kəndlərini gəzmişəm. Seçki məntəqələrinə



baş çəkmişəm. Ayrı-ayrı seçicilərlə görüşmüşəm. Ən ucqar kənd olan Candaharda belə yerləşən məntəqədə hər şey qaydasındadır, seçki tələblərinə tam əməl olunub. Cəmi 134 nəfər seçici var. Bir neçəsi ilə söhbət etdim. Fərəhlə danışdılar. “Hamımız bir nəfər kimi seçkidə iştirak edəcəyik” – dedilər.

Məntəqə seçki komissiyasının sədri Valeh Hacıyevə zəng vurdum. “Candaharlılar sözlərinin üstündə dayandılar...”

Nə gizlədim. Qürur hissi keçirdim. Yadıma “Dağ adamları sözü bütöv olurlar” ifadəsi düşdü. Ürəyimdən keçdi ki, o kənddən, onun mərd, təpərli insanlarından bir yazı hazırlayım.

86 saylı İsmayıllı seçki dairəsinin sədri Əlirəmzi Məhərrəmov bildirdi ki, 41 min 40 nəfər seçici var və onlar 69 məntəqədə səs verəcəklər. Məntəqələrin 6-da veb-kamera quraşdırılıb. 142 nəfər ilk dəfə səsvermənin sevincini dadacaq.

Seçki günü qeydiyyatdan keçən 703 nəfər müşahidəçinin izlədiyi və mühüm kampaniyada hər hansı qanun pozuntusu olması barədə dairəyə müraciət daxil olmayıb.

Sonra dairə seçki komissiyasından aldığımız xəbəri sizin də nəzərinizə çatdırıram: Seçicilərin 72 faizi seçkilərdə iştirak edib.

## Şəki

... Bilmirəm, Şəkinin Böyük Dəhnə kəndində olmusunuzmu? Bir dəfə gəlin. Burada hansı gözəlliklərin olduğunu öz gözlərinizlə görün. Mən bir dəfə də Ağsunun Ciyni kəndi haqqında yazanda ürəyimdən keçənləri gizlətməmişdim. Yazmışdım ki, mən Azərbaycanın bütün kəndlərini bax belə gəzmək istəyirəm. Elə oradaca əlavə etmişdim ki, belə bir inkişaf olan ölkədə bu, mütləq olacaq.

Kənddə salınmış 4 hektara yaxın ərazisi olan parkda nə yoxdur? İnsanların istirahəti üçün hər cür şərait yaradılıb. Böyük sahə quraşdırılıb, skamyalar qoyulub. Qiymətli ağaclar, bəzək kolları parka xüsusi yaraşıq verir. Uşaqlar da yaddan çıxmayıb. Onlar üçün əyləncə yerləri yaradılıb, attraksionlar quraşdırılıb. 620 yerlik yeni tikilmiş məktəb binasında balalarımız elmin sirlərinə yiyələnirlər. Hələ bu yaxınlarda əlavə üçmərtəbəli korpusun tikintisinə başlanacaqdır. Yeni xəstəxana binasının isə özülü qoyulub. 24 metr enində olan yola asfalt döşənib, hər iki tərəfində səliqə-sahman yaradılıb.

Hələ harasıdır. Qarşıda bizi təəccübləndirən çox işlər görüləcək. Jurnalist dostum Akif Salamın sözünü xatırlayıram: “Bu işləri görmək üçün insanda təpər, qeyrət, torpaq sevgisi olmalıdır”.

Böyük Dəhnədə kimdən soruşsan seçki məntəqəsinə qürur hissi ilə gəlib. 37, 38 və 39 saylı məntəqələrin hamısı səhər saat 8-dən seçicilərin üzünə açılıb. Hər şey normaldır. Günortaya yaxın seçicilərin, demək olar ki, yarısından çoxu öz səslərini istədikləri namizədə veriblər.

Nə gizlədim, mənim üçün ən maraqlı olanlardan biri məhz aprelin 11-də 18 yaşı tamam olacaq Sarxan Əhmədovun səs verməsi idi. Təxminən bir həftə bundan əvvəl onunla təsadüfən tanış olmuşdum. Söz vermişdi. Demişdi ki, məntəqədən çıxıb ilk zəng vuracağım siz olacaqsınız. Gözləyirdim. Zəng vurdu. Nə desə yaxşıdır: “Təbrik edə bilərsiniz. İnanın ki uçmağa qanadım yoxdur. Bir xeyir xəbər də verim. Sabah hərbi xidmətə yola düşürəm”. Sarxanın sözləri məni lap kövrəltdi. Bu gün səs verib, sabah Vətən torpağını qorumağa gedən balamıza “Uğur olsun!”, deməkdən başqa ayrı söz tapmadım.

114 saylı Şəki kənd birinci dairə seçki komissiyasının sədri Məhərrəm Məmmədovla əlaqə saxlayanda onun dediyi ilk söz bu oldu: Hər şey əladır 76,82 faizi seçkilərdə iştirak edib.

115 saylı Şəki ikinci seçki dairəsində seçicilərin 77,06 faizi, 113 saylı Şəki şəhər dairə seçki komissiyasında 73,24 faizi səs verib.

## Oğuz

... Dağlar qoynunda yerləşən Oğuzda dünən başqa bir təmtəraq vardı. 117 saylı Oğuz – Qəbələ seçki dairəsinin sədri Rəsul Cəfərov söhbət zamanı xüsusi vurğuladı ki, oğuzlular seçki məntəqələrinə həvəslə gəliblər. Belə ki, dairə seçki komissiyasına daxil olan məlumatlarda bu, özünü açıq-aşkar büruzə verib. 46 min 803 nəfər seçicinin səs verəcəyi 61 məntəqənin 7-də veb-kameralar vasitəsilə bu mühüm kampaniyanı canlı izləmək mümkün olub. Əlillərin də səsverməsi üçün lazımi şərait yaradılıb, 12 məntəqədə pandus quraşdırılıb.

Bu yazıda ilk dəfə səs verən iki seçicinin sevincini qeyd etməmək mümkün deyil. Səba Bədəlovanın və Malik Hədyarovun dünən 18 yaşları tamam olub. İlk dəfə məntəqəyə qədəm qoyan gənclərə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov təbrik göndərib. Yaşı 100-dən yuxarı olan 4 nəfər seçici də dünən səs verib.

117 saylı Oğuz – Qəbələ dairə seçki komissiyasının sədri Rəsul Cəfərovun son məlumatı belə oldu: seçicilərin 76,42 faizi səsvermədə iştirak edib.

***İlqar HƏSƏNOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***

## Xaçmaz

Respublikanın hər yerində olduğu kimi, ölkənin şimal qapısı olan Xaçmaz rayonunda da növbədənkənar prezident seçkiləri yüksək siyasi fəallıq və bayram əhval-ruhiyyəsi şəraitində keçmişdir. Bu, səhər tezdən Xaçmaz və Xudat şəhərlərinin küçə və meydanlarından keçərək dəstə-dəstə seçki məntəqələrinə axışan insanların bayram libaslı geyimindən və şən əhval-ruhiyyəsindən çox aydın şəkildə sezilirdi. Elə seçki məntəqələrindəki seçici izdihamı da bundan xəbər verirdi.

55 saylı Xaçmaz şəhər seçki dairəsinin akademik Zərifə Əliyeva adına Xaçmaz şəhər 1 saylı məktəbdə yerləşən 1 saylı seçki məntəqəsində seçicilərin fəallığı xüsusilə ürəkaçan idi. Məntəqə önündə rastlaşan insanlar sanki toya-bayrama gəlibmiş kimi bir-birini təbrik edirdilər. Bu, əlbəttə, hər şeydən öncə, onların doğma Azərbaycanımızın dünənindən məmnunluğunun və sabaha olan inamının təzahürü idi. Xaçmaz şəhər Mədəniyyət evində yerləşən 8 saylı seçki məntəqəsində də oxşar mənzərə hökmran idi. Ümumilikdə, aprelin 11-də keçirilmiş növbədənkənar prezident seçkilərində Xaçmaz rayonu üzrə 89632 seçici qeydə alınıb. Seçicilər iki dairə üzrə olmaqla 86 seçki məntəqəsində səsvermədə iştirak ediblər. Rayon üzrə 827 seçici ilk dəfə olaraq səs vermək hüququndan istifadə edibdir. 22 məntəqədə seçkinin gedişi veb-kameralar vasitəsilə izlənilmişdir. 55 saylı Xaçmaz şəhər dairə seçki komissiyasının sədri Bəhram Ömərovun verdiyi məlumata görə, seçkinin gedişini izləmək məqsədilə 12 məntəqədə veb-kameralar quraşdırılıb. Seçkinin gedişi 455 nəfər yerli müşahidəçi, həmçinin ATƏT və MDB-dən olan müşahidə missiyası tərəfindən izlənilmişdir.

Dairə seçki komissiyası sədrinin dediyinə görə, gün ərzində seçkinin təşkili və səsvermənin gedişatı ilə bağlı müşahidəçilər tərəfindən hər hansı bir ciddi qanun pozuntusu qeydə alınmayıb. Dairə üzrə ən yaşlı seçici olan Mehrəliqışlaq kənd sakini, 103 yaşlı Mələk Məlikova 40 saylı seçki məntəqəsində səs vermişdir.

Ümumilikdə 55 saylı dairə üzrə qeydiyyatda olan 43980 seçicinin saat 15.00-dək 43,08 faizi, saat 19.00-dək isə 76,28 faizi məntəqələrə gələrək səsvermədə iştirak etmişdir.

Xudat şəhərini, ona yaxın olan iki qəsəbə və 103 kəndi əhatə edən 56 saylı Xaşmaz kənd seçki dairəsində də növbədənkənar prezident seçkiləri yüksək fəallıq şəraitində keçmişdir. Dairə seçki komissiyasının sədri Söhrab Səfərovun verdiyi məlumata görə, saat 15.00-dək seçicilərin 64,3 faizi səsvermədə iştirak etmişdir. Dairə seçki komissiyasınn sədri seçkinin gedişi ilə bağlı bunları bildirmişdir: Dairə üzrə ümumilikdə 45692 nəfər seçici qeydiyyata alınıb. Onlardan 677 nəfəri ilk dəfədir ki, səsvermə hüququndan istifadə edən gənclərdir. Seçicilər 44 məntəqədə səs vermişlər. 10 məntəqədə seçkinin gedişi veb-kameralar vasitəsilə izlənilmişdir. Yerli müşahidəçilərlə yanaşı, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunu təmsil edən Qrellaum və Mariya Nikiferova, MDB-ni təmsil edən Leyla Kərimova, Murad Baydullayev, Zümrüd Busayeva və Kamil Davdoyev ayrı-ayrı məntəqələrdə seçkinin gedişini izləmişlər.

Hər birində 1400 nəfərdən çox seçicinin olduğu 11 saylı Qusarçay, habelə 2 və 3 saylı Xudat şəhər məntəqələri ən iri seçki məntəqələridir. Dairə üzrə ən çox seçki təcrübəsi olan seçici isə Balaqusar kənd sakini 101 yaşlı Məryəm Bədirovadır. 13 saylı Həsənqala seçki məntəqəsində səs verən Məryəm nənə söhbət əsnasında bildirib ki, o bugünkü seçkilərdə ilk dəfə iştirak edən gənclərin yaşından sayca bir neçə dəfə artıq olan seçkilərdə iştirak edib. O, həmin seçkilərin bir qisminə heç qatılmadığını, əksər seçkilərdə isə kimə səs verdiyinin fərqinə varmayıb. Amma Məryəm nənə bugünkü seçkidən çox məmnundur.

Dairə seçki komissiyasından verilən məlumata gorə, ümumilikdə 56 saylı Xaçmaz kənd seçki dairəsi üzrə seçicilərin 77,54 faizi gün ərzində məntəqələrə gələrək səsvermədə iştirak etmişdir.

## Quba – Qusar

52 saylı Quba seçki dairəsində Quba şəhəri ilə yanaşı, digər 17 inzibati ərazi vahidini əhatə edən 45810 seçici qeydiyyata alınıb. Aprelin 11-də seçicilər 72 seçki məntəqəsində səs vermişlər. Həmin məntəqələrdən 13-ü Quba şəhərində, 59-u isə digər inzibati ərazi vahidlərində fəaliyyət göstərir. 1,2,3,4,5,7,9,11,16,24 və 54 saylı seçki məntəqələrində seçkinin gedişini izləmək üçün veb-kameralar quraşdırılmışdır. Seçkinin gedişatı çoxsaylı yerli müşahidəçilərlə yanaşı, ATƏT, AŞPA və MDB-dən olan müşahidə missiyası tərəfindən izlənilmişdir. Beynəlxalq müşahidəçilər 1,2,3,5,14 və 15 saylı seçki məntəqələrində olmuş və heç bir qanun pozuntusu ilə rastlaşmamışlar.

Dairə seçki komissiyasının sədri Mübariz Abbasovun verdiyi məlumata görə, 649 nəfər qubalı gənc ilk dəfə olaraq seçkilərə qatılıb. Daha çox seçicini əhatə edən seçki məntəqələrindən biri Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının binasında yerləşən 1 saylı seçki məntəqəsidir. Orada qeydiyyatda olan 1003 nəfər seçicinin yarıdan çoxu elə günorta vaxtlarınadək səsvermədə iştirak edib. Məntəqə seçki komissiyasının sədri Xalid Bayramovun fikrincə əvvəlki illərdə keçirilmiş seçkilərdə heç zaman belə seçki fəallığı müşahidə olunmayıb. Quba şəhər 4 saylı məktəb-liseydə və Qəçrəş kənd tam orta məktəbində fəaliyyət göstərən məntəqələr də daha çox seçicisi olan məntəqələrdəndir. Hansı ki, həmin məntəqələrdə də yüksək seçici fəallığı qeydə alınmışdır. Ümumilikdə, 52 saylı Quba seçki dairəsi üzrə saat 15.00-dək seçicilərin 65,21 faizi səsvermədə iştirak etmişdir. Dairə seçki komissiyasından aldığımız yekun məlumata görə isə seçicilərin 78,44 faizi səsvermədə iştirak edərək rəğbət bəslədiyi namizədə səs vermişdir.

53 saylı Quba – Qusar seçki dairəsində də növbədənkənar prezident seçkiləri olduqca mütəşəkkil şəraitdə keçmişdir. Məlumat üçün bildirək ki, Quba rayonunun 3 kəndini və Qusar rayonunu əhatə edən bu dairə 48450 seçicini əhatə edir. Dairə üzrə 76 seçki məntəqəsi fəaliyyət göstərmişdir. Həmin məntəqələrin də 10-da seçkinin gedişi veb-kameralar vasitəsilə izlənilmişdir. Seçkilərin gedişi, həmçinin çoxsaylı yerli və beynəlxalq müşahidəçilər tərəfindən də izlənilmişdir.

ATƏT-in müşahidə missiyasını təmsil edən Vladimir Xaxlov və Leanardus Qerardus 4,14,15, 17 və 19 saylı seçki məntəqələrində seçkinin gedişini müşahidə etmişlər. Dairə seçki komissiyasından bildirildiyinə görə, seçkilərin gedişi zamanı heç bir qanun pozuntusu qeydə alınmamışdır. Dairə seçki komissiyasının sədri Rahim Qarayevin sözlərinə görə, 3500 nəfərə yaxın seçicini əhatə edən 1 saylı Birinci Nügədi, 7 saylı İkinci Nügədi və 14 saylı Vladimirovka məntəqələri ən iri seçki məntəqələri hesab olunur. Hansı ki, həmin məntəqələrdə də yüksək seçici fəallığı müşahidə olunmuşdur. Dairə üzrə 789 gənc ilk dəfə səsvermə hüququndan istifadə etmişdir. Ən yaşlı seçicilər isə Əlibəyqışlaq kənd sakini 103 yaşlı Sürəyya Mehdiyeva və onun həmyaşıdı, Səbətlər kənd sakini Mövlud Seyidovdur. Bütövlükdə, 53 saylı Quba – Qusar seçki dairəsi üzrə qeydiyyatda olan 48450 seçicinin 63 faizindən çoxu saat 15.00-dək səsvermədə iştirak etmişdir. Dairə seçki komissiyasının son məlumatına görə, seçicilərin 75,66 faizi məntəqələrə gələrək səsvermədə iştirak etmişdir.

Bir sözlə, ölkəmizin şimal bölgəsinə daxil olan Xaşmaz, Quba və Qusar rayonlarında növbədənkənar prezident seçkiləri demokratik və aşkarlıq şəraitində keçmişdir. Bu isə o deməkdir ki, Azərbaycan seçiciləri öz olkəsinin sabahına biganə deyillər.

***Q.CƏFƏROĞLU,***
***“Xalq qəzeti”***